Azərbaycan Respublikasının
Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyasının
Qlobal İnnovasiya İndeksi üzrə Əlaqələndirmə qrupunun iclasının

PROTOKOLU № 6

Bakı şəhəri **29 oktyabr 2026-cı il**

İştirak edirdilər:

Rəhbər şəxslər:

Elnur Əliyev – Azərbaycan Respublikasının İqtisadiyyat nazirinin birinci müavini, Əlaqələndirmə qrupunun rəhbəri;

Vüsal Şıxəliyev – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri, Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Katibliyinin rəhbəri;

Əlaqələndirmə qrupunun üzvləri:

Rəşad Əzizov - Mədəniyyət Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının Kino Agentliyinin (Kino Agentliyi) baş direktoru;

Kamil Mirişov - İqtisadiyyat Nazirliyi Aparatının Sahibkarlığın inkişafı siyasəti və tənzimlənməsi şöbəsinin müdiri;

Elvin Məmmədov - Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Aparatının Strateji inkişaf və iqtisadi təhlil şöbəsinin müdir müavini;

Xudayət Həsənli - Əqli Mülkiyyət Agentliyinin Aparat rəhbəri, Əqli mülkiyyət məsələləri üzrə xüsusi işçi qrupunun katibi;

Nəcəf Quliyev - Əqli Mülkiyyət Agentliyinin Əqli mülkiyyətin təhlili və siyasəti şöbəsinin müdiri;

Yaqub Məmmədov - Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Aparatının İqtisadiyyat şöbəsinin müdir müavini;

Mətanət Rəsulova - İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin İnsan resursları üzrə meneceri;

Əlaqələndirmə qrupunun katibi:

Zaur Nuruyev - İqtisadiyyat Nazirliyi Aparatının Sahibkarlığın inkişafı siyasəti və tənzimlənməsi şöbəsinin müdir müavini;

Dəvət olunanlar:

Ümid Ağazadə - İqtisadiyyat Nazirliyi Aparatının Sahibkarlığın inkişafı siyasəti və tənzimlənməsi şöbəsinin müdir müavini;

Xəyyam İsmayılov - Mərkəzi Bankın Bank olmayan kredit təşkilatlarının (BOKT) fəaliyyətinə nəzarət departamentinin direktoru;

Nərgiz Şirəliyeva - Mərkəzi Bankın Maliyyə sektorunun dayanıqlı inkişafı departamentinin Maliyyə sektorunun inkişafı şöbəsinin rəisi;

Məcidxan Vəliməmmədov - Mərkəzi Bankın Strateji və layihə idarəetməsi departamentinin Strateji idarəetmə şöbəsinin mütəxəssisi, Effektiv idarəetmə və makroiqtisadi göstəricilər işçi qrupunun katibi;

Səbinə Hüseynova - Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsinin Hüquqi aktların dövlət reyestri şöbəsinin rəisi, Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi işçi qrupunun katibi;

Raminə Xəlilova - Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsinin Sosial normativ aktlar idarəsinin böyük məsləhətçisi, Biznesin müflisləşməsi işçi qrupunun katibi;

Nicat Rəhmanlı - Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Aparatının Strateji planlaşdırma və innovasiyalar şöbəsinin müdir müavini, Əmək bazarı işçi qrupunun katibi;

Eltac Abbasov - Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Aparatının Nəqliyyat siyasəti şöbəsinin aparıcı məsləhətçisi, Fiziki infrastruktur işçi qrupunun katibi;

Ruqiyyə Ağamalıyeva - Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Aparatının Strateji inkişaf və iqtisadi təhlil şöbəsinin məsləhətçisi, Texnologiya və innovasiyalar işçi qrupunun katibi;

Emil Aslanov - Daxili İşlər Nazirliyinin Beynəlxalq Əməkdaşlıq İdarəsinin baş inspektor-tərcüməçisi;

Röya Musayeva - Elm və Təhsil Nazirliyi Aparatının Hesabatvermə və icraya nəzarət sektorunun böyük məsləhətçisi, İnsan kapitalı işçi qrupunun katibi;

Qələndər Məmmədli - Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Strateji planlama və portfellərin idarəolunması departamentinin İqtisadi təhlil şöbəsinin böyük mütəxəssisi;

Aysel Yusifova - Elm və Təhsil Nazirliyinin Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin layihə rəhbəri;

Yusif Mədətov - Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəliyinin müşaviri;

Nəzrin Hüseyn - Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəliyinin attaşesi;

Nəzrin Nəzərova - Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Aparatının Strateji planlaşdırma və innovasiyalar şöbəsinin Strateji planlaşdırma sektorunun baş məsləhətçisi;

Bəhruz Bəxşəliyev - Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Aparatının Strateji planlaşdırma və innovasiyalar şöbəsinin sektor müdiri;

Rövşən Camalov - Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Təbii inhisar və dövlət inhisarının tənzimlənməsinin təşkili sektorunun müdiri, Əmtəə bazarının səmərəliliyi və rəqabət işçi qrupunun katibi;

Fərid İbadov - Dövlət Statistika Komitəsi sədrinin müşaviri;

Elçin Hacı - Dövlət Statistika Komitəsinin Statistik vahidlərin reyestri və metodologiya şöbəsinin müdiri;

Alidə Alpaşayeva - Dövlət Statistika Komitəsinin Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin müdir müavini;

Dilbər Hüseynova - Dövlət Statistika Komitəsinin Əmək və əhalinin həyat səviyyəsi statistikası şöbəsinin aparıcı məsləhətçisi;

Ayhan Satıcı - Mədəniyyət Nazirliyi Aparatının Strateji inkişaf və kommunikasiya şöbəsinin müdiri v.i.e.;

Ülkər Nəsibli - Mədəniyyət Nazirliyi Aparatının Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin məsləhətçisi;

Fuad Aslanov - Dövlət Gömrük Komitəsinin Rəqəmsal İdarəetmə Baş İdarəsinin rəisi;

Rəşid Vəliyev - Dövlət Gömrük Komitəsinin Statistika İdarəsinin rəis müavini;

Musa Abbaszadə - Dövlət Gömrük Komitəsinin Tarif tənzimlənməsi şöbəsinin rəisi;

Gülçin Ələsgərova - İqtisadiyyat Nazirliyi Aparatının Ticarət və xarici investisiya siyasəti şöbəsinin müdir müavini;

Arzu Hüseynova - İqtisadiyyat Nazirliyinin İqtisadi Elmi Tədqiqat İnstitutu publik hüquqi şəxsinin İdarə Heyəti sədrinin birinci müavini;

Elgün Hacıxəlilov - İqtisadiyyat Nazirliyi Aparatının İqtisadi siyasət şöbəsinin Sosial siyasət sektorunun müdiri;

Zülfiyyə Möhsümova - İqtisadiyyat Nazirliyi Aparatının İqtisadi siyasət şöbəsinin Sosial siyasət sektorunun aparıcı məsləhətçisi;

Niyaz Şükürov - Dövlət Vergi Xidmətinin Vergi Siyasəti Baş İdarəsinin Strateji planların idarə edilməsi və icrasına nəzarət şöbəsinin rəisi;

Fariz Cəfərov - İqtisadiyyat Nazirliyinin Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin icraçı direktoru;

Soltan Bayramov - İqtisadiyyat Nazirliyinin Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin icraçı direktorunun müavini;

Əzizə Vidadi qızı - İqtisadiyyat Nazirliyinin Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin Təhlil və monitorinq şöbəsinin müdiri;

İsmayıl Əliyev - Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyinin (KOBİİTA) Strategiya və korporativ inkişaf şöbəsinin müdiri, Korporativ idarəetmə, investisiyalar və korporativ sosial məsuliyyət işçi qrupunun katibi;

Emin Soltanov - İqtisadiyyat Nazirliyi Aparatının Sahibkarlığın inkişafı siyasəti və tənzimlənməsi şöbəsinin Biznes mühitinin inkişafı sektorunun müdiri;

Eldəniz Zeynalov - İqtisadiyyat Nazirliyi Aparatının Sahibkarlığın inkişafı siyasəti və tənzimlənməsi şöbəsinin Sahibkarlığa dövlət xidmətlərinin təşkili sektorunun müdiri, Beynəlxalq ticarət işçi qrupunun katibi;

Sərxan Səmədov - İqtisadiyyat Nazirliyi Aparatının Sahibkarlığın inkişafı siyasəti və tənzimlənməsi şöbəsinin Biznes mühitinin inkişafı sektorunun baş məsləhətçisi;

İrfan Bəyalızadə - İqtisadiyyat Nazirliyi Aparatının Sahibkarlığın inkişafı siyasəti və tənzimlənməsi şöbəsinin Biznes mühitinin inkişafı sektorunun məsləhətçisi.

Gündəlikdəki məsələlər:

1. Qlobal İnnovasiya İndeksi (Qİİ) 2026 hesabatında Azərbaycanın nəticələrinin təhlili, görülmüş işlərin qiymətləndirilməsi və qarşıda duran vəzifələrin müzakirəsi;
2. Yekun müzakirələr və təkliflər.

Çıxışlar və müzakirələr:

Azərbaycan Respublikasının İqtisadiyyat nazirinin birinci müavini, Əlaqələndirmə qrupunun rəhbəri Elnur Əliyev onlayn formatda keçirilən iclası giriş sözü ilə açaraq iştirakçıları salamladı və iclasın gündəliyinə daxil edilmiş məsələlər barədə məlumat verdi.

Elnur Əliyev bildirdi ki, Qİİ 2026 hesabatında Azərbaycan əvvəlki hesabatla müqayisədə 9 pillə irəliləyərək 139 iqtisadiyyat arasında 85-ci yerdə qərarlaşmışdır və bu, 2021-ci ildən bəri ölkəmizin ən yüksək nəticəsidir. "İnnovasiya resursları" alt-indeksi üzrə ölkəmizin mövqeyi 11 pillə yaxşılaşaraq 65-ci yerə yüksəlmişdir ki, bu da 2020-2026-cı illər dövrünün ən yaxşı göstəricisidir. "İnnovasiya nəticələri" alt-indeksi üzrə isə Azərbaycan 3 pillə irəliləyərək 109-cu yerdə qərarlaşmışdır.

Qeyd edildi ki, əldə olunmuş irəliləyişdə Əlaqələndirmə qrupunun 06.10.2025 və 19.05.2026 tarixli iclaslarında qəbul edilmiş qərarların icrası mühüm rol oynamışdır. Əvvəlki iclasda xüsusi diqqət yetirilmiş, məlumatları yenilənməyən və ya çatışmayan 13 indikatordan 6-sı üzrə nəticə əldə edilmiş, o cümlədən Dünya İqtisadi Forumunun İcraçı Rəy Sorğusunun ölkəmizdə təşkili nəticəsində əvvəllər yenilənməyən 3 indikator üzrə Azərbaycan dünyanın ilk beşliyinə daxil olmuşdur. Vurğulandı ki, bu nəticələr aidiyyəti dövlət qurumları, işçi qrupları və beynəlxalq təşkilatlar arasında qurulmuş səmərəli koordinasiyanın göstəricisidir.

Bununla yanaşı, Elnur Əliyev əldə olunmuş nəticələrin obyektiv qiymətləndirilməsinin vacibliyini vurğulayaraq bildirdi ki, innovasiya resursları ilə innovasiya nəticələri arasındakı fərqin 36 pillədən 44 pilləyədək genişlənməsi mövcud resursların hələ də müvafiq səviyyədə texnoloji və yaradıcı nəticələrə çevrilmədiyini göstərir.

O, iclasın əsas məqsədinin Qİİ 2026 hesabatında Azərbaycanın nəticələrinin təhlili, əvvəlki iclasların qərarları əsasında görülmüş işlərin qiymətləndirilməsi, məlumatları yenilənməyən və ya çatışmayan indikatorlar üzrə qalan məsələlərin müzakirəsi, habelə qarşıda duran vəzifələrin müəyyənləşdirilməsindən ibarət olduğunu qeyd etdi.

Daha sonra Elnur Əliyev iclasda iştirak edən qurumların məsul nümayəndələrinin qaldırılan hər bir məsələ üzrə öz mövqelərini bildirmələrinin vacib olduğunu qeyd edərək sözü Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri, Komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyevə verdi.

Vüsal Şıxəliyev iclas iştirakçılarını salamlayaraq Qİİ 2026 hesabatında Azərbaycanın son 5 ilin ən yüksək nəticəsini əldə etdiyini qeyd etdi, bu nailiyyətin işçi qruplarının əlaqələndirilmiş fəaliyyətinin nəticəsi olduğunu vurğulayaraq iştirakçıları təbrik etdi. O, ölkənin indeks üzrə göstəricilərinin yaxşılaşdırılması məqsədilə Əlaqələndirmə qrupu tərəfindən işçi qruplarının fəaliyyətinin koordinasiyası istiqamətində görülən işlər barədə məlumat verdi. Vüsal Şıxəliyev

yenilənmiş matrisanın avqust ayında Komissiyaya rəsmi qaydada təqdim edildiyini bildirərək həmin matrisa üzrə tədbirlərin icrasının əhəmiyyətini vurğuladı. O, həmçinin işçi qruplarının növbəti il üçün fəaliyyət planlarında Qİİ göstəricilərinin yaxşılaşdırılmasına yönəlmiş tədbirlərin nəzərdə tutulmasının vacibliyini qeyd etdi və bu məqsədlə fəaliyyət planlarının layihələrinin Əlaqələndirmə qrupu ilə razılaşdırıldıqdan sonra Komissiyaya təqdim edilməsi üçün işçi qruplarına rəhbərlik edən qurumlara müvafiq müraciətlərin ünvanlanmasının zəruriliyini bildirdi.

Ardınca Elnur Əliyev gündəliyin əsas məsələsi üzrə təqdimat üçün sözü İqtisadiyyat Nazirliyi Aparatının Sahibkarlığın inkişafı siyasəti və tənzimlənməsi şöbəsinin Biznes mühitinin inkişafı sektorunun müdiri Emin Soltanova verdi.

Emin Soltanov təqdimatla çıxış edərək Qİİ 2026 hesabatında Azərbaycanın göstəriciləri, hesabatda müəyyən edilmiş güclü və zəif tərəflər və onların əsas səbəbləri, ölkəmizin nəticələrinin qonşu ölkələrin, Müstəqil Dövlətlər Birliyi (MDB) və Türk Dövlətləri Təşkilatı (TDT) üzv dövlətlərinin nəticələri ilə müqayisəsi, habelə görülmüş işlər barədə məlumat verdi. O, həmçinin Qİİ 2026 hesabatında əvvəlki hesabatla müqayisədə 1 indikatorun çıxarıldığını və 2 yeni indikatorun əlavə edildiyini qeyd etdi.

Daha sonra Emin Soltanov ötən dövrdə aidiyyəti işçi qrupları tərəfindən Qİİ 2025 hesabatında məlumatları yenilənməyən və ya çatışmayan indikatorlar üzrə görülmüş işlər, hər bir işçi qrupu üzrə əldə edilmiş əsas nəticələr barədə məlumat verdi və diqqət tələb edən sahələri qeyd etdi. O, hesabatın təhlilinə əsasən yalnız məlumatların təqdim edilməsinin kifayət etmədiyini, biznes sektorunda elmi-tədqiqat fəaliyyətinin faktiki genişləndirilməsinin və bu sahədə statistik uçotun tamlığının yoxlanılmasının zəruri olduğunu bildirdi. Emin Soltanov bəzi hallarda mövcud məlumatların mənbə təşkilatlarına çatdırılmadığını qeyd edərək misal kimi OMDIA-nın rəsmi məlumatlara çıxışı olmadığından açıq internet mənbələrindən istifadə etdiyini və nəticədə 7.2.2-ci "Milli bədii filmlər" indikatoru üzrə geriləmə müşahidə olunduğunu göstərdi. Qeyd olundu ki, 15.10.2026 tarixində OMDIA, Kino Agentliyi və aidiyyəti qurumların iştirakı ilə keçirilmiş görüşdə Kino Agentliyinin əvvəlki və növbəti illər üzrə rəsmi məlumatlarından istifadəyə dair razılıq əldə edilmişdir.

Bununla bağlı Kino Agentliyinin baş direktoru Rəşad Əzizov məlumatların OMDIA-ya təqdim edilməsi istiqamətində görülən işlərin vəziyyəti barədə qısa məlumat verərək bildirdi ki, Kino Agentliyinin rəsmi internet səhifəsində 2020-2026-cı illərdə Azərbaycanda istehsal olunmuş bədii filmlərə dair məlumatlar yerləşdirilmiş, həmçinin müvafiq məlumatlar Əqli Mülkiyyət Agentliyi vasitəsilə OMDIA-ya təqdim edilmişdir.

Daha sonra Emin Soltanov Qİİ 2026 hesabatının 1.3.2-ci "Sahibkarlıq siyasəti və mədəniyyəti" və 4.1.1-ci "Startapların və böyüyən şirkətlərin maliyyələşdirilməsi" indikatorları üzrə Qlobal Sahibkarlıq Monitorinqi (GEM) ilə aparılan işlər barədə məlumat verdi. O, qeyd etdi ki, sözügedən indikatorlar üzrə göstəricilər 2024-cü ilin məlumatlarına əsaslanır, 2025-ci il

sorğusunun nəticələri isə hələ GEM-in məlumat bazasında əks olunmamışdır. Buna baxmayaraq, ölkəmiz həmin indikatorlar üzrə müvafiq olaraq 2-ci və 11-ci yerlərdə qərarlaşmışdır ki, bu da ölkəmizin indeks üzrə ən güclü mövqelərindəndir. Emin Soltanov nəticələrin davamlılığının təmin olunması və daha da yaxşılaşdırılması məqsədilə növbəti illərdə də sorğuların keçirilməsinin vacib olduğunu vurğuladı.

Bununla bağlı KOBİİTA-nın Strategiya və korporativ inkişaf şöbəsinin müdiri İsmayıl Əliyev bildirdi ki, KOBİİTA tərəfindən GEM-ə işçi qaydada müraciət edilmişdir. O, həmçinin qeyd etdi ki, GEM-in 2026-cı il Milli Ekspert Sorğusunun ən azı 36 ekspertin iştirakı ilə keçirilməsi tələbi nəzərə alınmaqla bu istiqamətdə işlər davam etdirilir.

Emin Soltanov təqdimatını davam etdirərək Qİİ 2026 hesabatının 5.1.1-ci "Bilik yönümlü məşğulluq" və 5.1.2-ci "Yüksək ixtisaslı qadınların məşğulluğu" indikatorları üzrə məlumatların ardıcıl ikinci il mövcud olmadığını bildirdi. O, bunun əsas səbəbi kimi Beynəlxalq Əmək Təşkilatının (BƏT) hazır statistik cədvəllər əvəzinə anonimləşdirilmiş mikroməlumatlar tələb etdiyini, Dövlət Statistika Komitəsinin rəyinə əsasən isə həmin məlumatların təqdim edilməsinin "Rəsmi statistika haqqında" Azərbaycan Respublikası Qanununun 16-cı maddəsi ilə məhdudlaşdırıldığını qeyd etdi.

Elnur Əliyev qeyd etdi ki, bu məsələ ilə bağlı ilk növbədə beynəlxalq təcrübə, xüsusilə region ölkələrinin təcrübəsi öyrənilməli, həmin ölkələrdə statistik məlumatların təqdim edilməsi və müvafiq göstəricilərdə əks olunması mexanizmləri araşdırılmalı, bunun əsasında təkliflər hazırlanmalıdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Aparatının Strateji planlaşdırma və innovasiyalar şöbəsinin müdir müavini Nicat Rəhmanlı çıxış edərək sözügedən indikatorların əmək bazarında məşğulluq göstəriciləri ilə bağlı olduğunu bildirdi. O, qeyd etdi ki, Dövlət Statistika Komitəsi tərəfindən BƏT-ə ümumiləşdirilmiş statistik məlumatlar təqdim edilsə də, BƏT həmin məlumatların mikroməlumatlar formasında təqdim olunmasını tələb edir.

Dövlət Statistika Komitəsinin Əmək və əhalinin həyat səviyyəsi statistikası şöbəsinin aparıcı məsləhətçisi Dilbər Hüseynova bildirdi ki, məsələ dəfələrlə müzakirə edilmiş və Komitənin mövqeyi dəyişməz qalmışdır. Belə ki, "Rəsmi statistika haqqında" Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinə əsasən ilkin statistik məlumatlar konfidensial hesab edildiyindən onların təqdim edilməsi mümkün deyildir. O, 2022-2024-cü illər üzrə ümumiləşdirilmiş məlumatların BƏT-ə təqdim edildiyini və hazırda Ümumdünya Əqli Mülkiyyət Təşkilatının həmin məlumatları BƏT-in məlumat bazasından əldə etdiyini qeyd etdi. O, həmçinin digər ölkə və təşkilatların təcrübəsində şəxsi məlumatlar açıqlanmadan statistik məlumatların anonimləşdirilmiş və ya kodlaşdırılmış formada təqdim edildiyini qeyd etdi.

Bununla bağlı Elnur Əliyev bildirdi ki, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 dekabr tarixli 860 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında rəsmi statistikanın

inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir. O, Proqram çərçivəsində aidiyyəti qurumlar tərəfindən ilk növbədə müvafiq göstərici üzrə yüksək nəticələr əldə etmiş ölkələrin, o cümlədən MDB ölkələrinin təcrübəsinin öyrənilməsini, daha sonra həmin təcrübənin ölkəmizdə tətbiqi məqsədilə qanunvericiliyə müvafiq dəyişikliklər edilməsi barədə təkliflərin hazırlanması məsələsinə baxılmasını məqsədəuyğun hesab etdiyini bildirdi.

Daha sonra Emin Soltanov Qİİ 2026 hesabatının 4.1.3-cü "Mikromaliyyə institutlarının kreditləri" indikatoru barədə məlumat verərək bildirdi ki, qanunvericilikdə "mikrokredit" anlayışının müəyyən edilməməsi səbəbindən Beynəlxalq Valyuta Fondunun Maliyyə Əlçatanlığı Sorğusunun müvafiq bölməsi üzrə məlumat təqdim edilmir. O, məsələnin həlli üçün "Bank olmayan kredit təşkilatları haqqında" və "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişikliklər edilməsi barədə qanun layihələri üzrə təkrar ekspertizanın yekunlaşdırılmasının və həmin layihələrin qəbul edilməsinin zəruri olduğunu qeyd etdi.

Bununla bağlı Mərkəzi Bankın BOKT fəaliyyətinə nəzarət departamentinin direktoru Xəyyam İsmayılov qeyd etdi ki, Mərkəzi Bank tərəfindən mikromaliyyə modeli üzrə strateji çərçivə hazırlanmış, qanunvericiliyə müvafiq dəyişikliklər edilməsi, ixtisaslaşmış təsisatların yaradılması və BOKT-lərin fəaliyyət imkanlarının genişləndirilməsi istiqamətində işlər davam etdirilir. O, vurğuladı ki, həm Mərkəzi Bankın daxilində, həm də işçi qrupu çərçivəsində müzakirələr yekunlaşdırıldıqdan və müvafiq dəqiqləşdirmələr aparıldıqdan sonra indikatorla bağlı göstəricilər müəyyən ediləcəkdir.

Təqdimatını davam etdirən Emin Soltanov Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12.08.2026 tarixli dərkənarı ilə təsdiq edilmiş matrisanın Qİİ 2025 hesabatının strukturuna əsaslandığını bildirdi. O, Qİİ 2026 hesabatına uyğun olaraq matrisada struktur dəyişikliklərinin aparılmasının, o cümlədən 2 yeni indikatorun (3.2.2 və 5.3.5) əlavə edilməsinin və 1 indikatorun (4.2.5) çıxarılmasının zəruriliyini vurğuladı.

Elnur Əliyev təqdimatla bağlı iclas iştirakçılarının əlavə sual və təkliflərinin olub-olmadığını soruşduqdan sonra sözü yenidən Vüsal Şıxəliyevə verdi.

Vüsal Şıxəliyev Qİİ 2026 hesabatında yer alan yeni indikatorlarla bağlı müvafiq tədbirlərin işçi qruplarının növbəti il üçün fəaliyyət planlarına daxil edilməsinin, habelə həmin planların hazırlanaraq təqdim olunmasının zəruriliyini qeyd etdi.

Daha sonra Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Aparatının Nəqliyyat siyasəti şöbəsinin aparıcı məsləhətçisi Eltac Abbasov çıxış edərək Qİİ 2026 hesabatına yeni daxil edilmiş 3.2.2-ci "Aviasiya idxalında gözləmə müddəti" indikatorunun cari ilin aprel ayında dərc olunmuş Logistika Performansı İndeksində də əks olunduğunu bildirdi. O, bununla əlaqədar təkrarçılığa yol verilməməsi məqsədilə sözügedən indikatorun matrisaya daxil edilməsi məsələsinə yenidən baxılmasını xahiş etdi.

Yekun sözündə Elnur Əliyev cari ilin sonunadək növbəti görüşün keçirilməsinin, işçi qruplarından gözləntilərin daha konkret müəyyən edilməsinin, müzakirə olunan məsələlər üzrə yekun qərarların qəbul edilməsinin, habelə Qİİ hesabatında Azərbaycanın mövqeyinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması üçün müvafiq tədbirlərin həyata keçirilməsinin zəruriliyini vurğuladı.

Sonda Elnur Əliyev iclas iştirakçılarına çıxış və təkliflərinə görə təşəkkür edərək müvafiq tövsiyə və tapşırıqlarını verdi.

Qərara alındı:

1. Qİİ 2026 hesabatının strukturuna uyğun olaraq yenilənmiş və aidiyyəti işçi qrupları ilə razılaşdırılmış matrisa təsdiq edilməsi və işçi qruplarının 2027-ci il üzrə fəaliyyət planlarında nəzərə alınması üçün Əlaqələndirmə qrupu tərəfindən Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyaya təqdim edilsin;

2. Qİİ-nin 5.1.1-ci "Bilik yönümlü məşğulluq" və 5.1.2-ci "Yüksək ixtisaslı qadınların məşğulluğu" indikatorları üzrə məlumat boşluğunun aradan qaldırılması məqsədilə aidiyyəti qurumlar (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Statistika Komitəsi) tərəfindən həmin indikatorlar üzrə yüksək nəticələr əldə etmiş ölkələrin, o cümlədən region və MDB ölkələrinin statistik məlumatların təqdim edilməsi və müvafiq göstəricilərdə əks olunması təcrübəsi öyrənilsin və bunun əsasında müvafiq təkliflər hazırlansın;

3. 2027-ci il üzrə işçi qruplarından gözləntilərin konkretləşdirilməsi məqsədilə cari ilin sonunadək növbəti görüş keçirilsin.

Əlaqələndirmə qrupunun rəhbəri **Elnur Əliyev**

Əlaqələndirmə qrupunun katibi **Zaur Nuruyev**